UOT 634.75

GENOFONDA TOPLANMIŞ ÇİYƏLƏK SORT VƏ FORMALARININ TOZCUQLARININ TƏDQİQİ

A.F.HACIYEVA, L.Ə.ŞİRİYEVA
AMEA Genetik Ehtiyatlar İnstitutu

Məqalədə çiyələk sort və formalarının çiçək tozcuqlarını mayalama qabiliyyətinə tədqiqindən və gələcəkdə fertilliyi yüksək olan sortlardan seleksiya məqsədilə istifadəsindən bəhs edilir.

Açar sözlər: çiyələk, bitki, genofond, tozcuq, fertillik, sterillik.

Çiyələk ən geniş yayılmış giləmeyvədir. Çiyələk dünyada giləmeyvələrə ayrılmış kənd təsərrüfatı ərazilərinin 2/3 hissəsini əhatə edir, tez yetişməsinə və çox gəlir gətirməsinə görə digər meyvə- giləmeyvələri 2-3 dəfə üstələyir. Çiyələk istehsalı yalnız Amerika və Avropada 1,5 mln ton təşkil edir. Əlverişli şəraitdə çiyələk istehsalının gəlirliyi daha yüksək ola bilər. Ən böyük ölkələrdən çiyələk istehsalçıları, FAO-ya görə: ABŞ, İspaniya, Yaponiya, Cənubi Koreya və Polşadır. Son onillikdə çiyələk istehsalı Türkiyədə, İranda, Şimali Afrikada bir neçə dəfə kəskin artmışdır, hansı ki, əvvəllər bitkiyə yetərincə diqqət ayrılmamışdır [4].

Bizim ölkədə çiyələk aparıcı giləmeyvə bitkilərindən sayılır və 50 min hektardan çox ərazini əhatə edir. Bu sahələrin əsas hissəsi həyətyanı və bağsalmaya aiddir. Əhalinin yüksək keyfiyyətli meyvə-giləmeyvə və onların emalı məhsulları ilə təmin edilməsində həmin məhsulların istehsalının artırılması əsas yerlərdən birini tutur. Lakin son zamanlar "etiologiyası məlum olmayan" xəstəliklərin çoxalması meyvə və giləmeyvə bitkilərin həyati vacib funksiyalarından boy və inkişafı, uzunömürlülüyü zədələyir [5].

Çiyələk- giləmeyvələr istehsalında vacib bitkilərdən biridir. Çiyələk cinsi yüksək adaptasiya potensialına malikdir. Onun becərilməsi müxtəlif iqlimli bölgələrdə mümkündür. Lakin bu potensialın həyata keçirilməsi sortun genotipindən və becərilmə şəraitindən asılıdır [1;2].

Çiyələk bitkisinin ən müxtəlif torpaqlarda bitib böyüməsi, bu bitkinin qar örtüyü altında yaxşı qalması onun müxtəlif zonalarda əkilməsinə imkan verir. Çiyələyin bioloji xüsusiyyətlərini nəzərə alaraq, A.N.Venyaminov və başqaları qeyd edirlər ki, digər meyvə bitkilərinə nisbətən çiyələk bitkisi barvermə dövrünə daha tez daxil olur ki, bu da plantasiya salmaq üçün çəkilən xərci az bir vaxtda ödəməyə və böyük gəlir əldə etməyə imkan verir.

Çiyələyin çoxaldılma üsulu da asan olduğundan, az bir vaxtda çoxlu miqdarda əkin materialı almaq mümkündür. Bu şitillər əkildiyi ildə meyvə verməyə başlayırlar və ikinci ildə bol məhsula düşürlər.

İctimai təsərrüfatlar çiyələk plantasiyaları salmaqla daha bir gəlir mənbəyinə malik olur ki, bu da onların mədaxilinin artmasına kömək edir. Şirvan düzü rayonlarında çiyələk plantasiyaları iqtisadi fayda verməklə torpaqdan səmərəli istifadə etmək məqsədilə meyvə bağları salarkən onun bağın cərgə aralarına əkilməsi məqsədəuyğundur.


Qeyd etmək lazımdır ki, respublikamızda çiyələk sənaye xarakteri almalı, Bakı, Sumqayıt, Gəncə, Naxçıvan, Mingəçevir və s. kimi iri sənaye mərkəzləri ətrafında geniş miqyasda inkişaf etdirilməlidir. Bəzi rayonlarda açılan konserv zavodlarını erkən yazda çiyələk məhsulu ilə təmin etmək qarşıda duran vacib məsələdir.

Bundan əlavə, əhalinin artmasını nəzərə alaraq, onları təzə çiyələk meyvələri ilə təmin etmək lazımdır. Odur ki, çiyələk məhsuluna olan tələbat daha da artır və ona görə də respublikamızın az suvarılan ərazilərində bu bitkinin sahəsi xeyli genişləndirilməlidir.

Bu sahədə əsas vəzifə respublika ərazisində yabanı meyvə və giləmeyvə ehtiyatını öyrənmək və onları tədarük edib, səmərəli istifadəsini təşkil etməkdən ibarətdir. Azərbaycanda giləmeyvə bağlarının salınması, onun bioloji xüsusiyyətlərinin hərtərəfli öyrənilməsi, yerli giləmeyvə sort və formalarının toplanması, qiymətləndirilməsi, yayılması vacib məsələlərdən biridir. Bunun üçün axtarışlar və introduksiya hesabına yeni giləmeyvə sort və formaları əldə edilərək tədqiq olunur.

Çiyələyin genetik fondunun bərpa olunması, yeni sortlarla zənginləşdirilməsi, onların bioloji və təsərrüfat xüsusiyyətlətinin öyrənilməsi vacibdir və bu istiqamətdə AMEA Genetik Ehtiyatlar İnstitutunda elmi-tədqiqat işi aparılır.

Çiyələk bitkisinin məhsuldarlığının artmasına müsbət təsir edən bir çox amillər var. Bunlardan biri də toz dənəciklərinin (tozcuqlarının) fertillik faizinin çox olmasıdır[5]. Bu məqsədlə AMEA Genetik Ehtiyatlar İnstitutunun Abşeron Təcrübə Bazasında yerləşən çiyələk kolleksiyasından 15 çiyələk sort və formaları tədqiq edilmişdir. Tədqiqatın əsas məqsədi çiyələk sort və formalarının çiçək tozcuqlarını mayalama qabiliyyətinə görə tədqiq etmək və gələcəkdə fertilliyi yüksək olan sortlardan seleksiya məqsədilə istifadə etməkdir. Çiyələk sort və formalarının tozcuqlarının tədqiqinin nəticələri aşağıdakı cədvəldə verilmişdir.



Şəkil 1. Yelşanka çiyələk sortunun tozcuqları.

Cədvəldən göründüyü kimi, tozcuğun ölçüləri tədqiq edilən çiyələk sort və formaları bir-birindən fərqlənmişdir (18,71 -25,83 mkm). Belə ki, uzunluğuna görə ən iri tozcuğa malik Potaxontas sortu (25,83 mkm) olmuşdur. Tozcuğun eninə görə isə yenə də Potaxontas sortu fəqlənmişdir (25.11 mkm). Ən kiçik tozcuğa malik isə Oleq Kaşevoy sortu olmuşdur (18,71 mkm). Tədqiq edilmiş sortların fertillik faizi yüksəkdir (97,0– 70,58%) .

Sortlar içərisində ən yüksək fertilliyə malik Yelşanka sortu olmaqla – 97,0% təşkil etmişdir(şəkil 1).

Deformasiyaya uğramış tozcuqlar ən çox Pionerka sortunda müşahidə edilərək, 29,41% təşkil etmişdir. Ən az deformasiyaya uğramış tozcuqlara isə Yelşanka sortunda (5,63%) rast gəlinmişdir.Qeyd etmək lazımdır ki, steril tozcuqlara heç bir sort və formada rast gəlinməmişdir.

Beləliklə, tədqiq olunan çiyələk sort və formalarının fertillik faizinin çox olmasını nəzərə alaraq, bu sortlardan çarpazlaşdırmada və yeni çiyələk plantasiyalarının salınmasında tozlayıcı kimi istifadə edilməsi məsləhət görülə bilər.

Cədvəl 1. AEB-da becərilən bəzi çiyələk sort və formaların tozcuqlarının tədqiqi

№	Sortlar	Tozcuğun uzunluğu, mkm	Tozcuğun eni, mkm	Tozcuğun ümumi sayı	Fertillər ,%	Sterillər ,%	Deformasiyaya uğramışlar, %
1	Albriton	25,08	24,08	-	79,86	-	20,13
2	Karmen	21,76	20,73	12	88,52	-	11,47
3	Reddekout	22,14	20,70	7	94,36	-	5,63
4	Zoya Kosmodemyanskaya	22,11	20,87	9	92,92	-	7,07
5	Minskaya	23,97	23,54	11	74,10	-	25,89
6	Potaxontas	25,83	25,11	4	92,89	-	7,11
7	Pionerka	22,17	21,78	8	70,58	-	29,41
8	Boravitrskaya	23,54	23,16	9	93,87	-	6,12
9	Oranjevaya	23,86	22,95	8	92,85	-	7,14
10	Leninokani	24,54	23,40	15	85,80	-	14,19
11	Oleq Kaşeyov	18,71	18,06	13	85,71	-	14,28
12	Surpriz Olimpiade	22,08	21,6	15	92,25	-	7,74
13	Beryulyovskaya	25,21	24,86	13	77,34	-	22,65
14	Həmişəbahar	24,3	23,67	7	86,66	-	13,33
15	Yelşanka	24.3	23.0	13	97.0	-	3.0

ƏDƏBİYYAT

1.Əsgərov A. T. Ali Bitkilərin sistematikası. Bakı –Elm 2006, II cild. **2.** Həsənov Z.M., Əliyev C. Meyvəçilik. Bakı - 2007. s. 469-480. **3.**.Берзегова А.А. Дикорастущие плодовые и ягодные растения Кавказа // X Международный симпозиум / Институт биологии Коми НЦ УрО РАН Сыктывкар, 2008, С.23-29. **4.**Жученко А.А. "Экологическая генетика культурных растений". Кишинёв : Штиинца, 1980, 586 с. **5.**Паушева З.П. «Практикум по цитологии растений» Москва, Колос, 1974. 287с.

Изучение пыльцевых зерен у сортов и форм клубники собранных в генофонд

А.Ф. Гаджиева, Л.А.Шириева

В статье говориться об изучении пыльцевых зерен у сортов и форм клубники собранных в генофонд. Было установлено, что у исследованных сортов и форм процент фертильности колеблился в пределах 97.7-70.58 % . Сорта и формы с высокими показателями могут быть использованы при закладке плантаций, также при гибридизации в качестве опылителей. Эти данные также можно целесообразно использовать при описании дескриптора.

Ключевые слова: клубнико, растение, генофонд, пыльца, фертильность, стерилность

Research of the pollen of species and forms of strawberry collected at the genefund

A.F.Hajieva, L.A.Shiriyeva

Materials on the research of the pollen seeds in species and forms of strawberry collected at the genefund are presented in this article.

It has been established that the researched species had the utmost fertility (97.7-70.58) which can be used in hybridization during laying of plantations and as sprays in the farmer economies. It is expedient to use the obtained data during description of species according to the descriptor.

Key words: strawberry, plant, genofond, pollen, fetbility, stability